BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№2 *Sosial-siyasi elmlər seriyası* 2005

# İQTİSADİYYAT

## AZƏRBAYCANIN BEYNƏLXALQ NEFT LAYİHƏLƏRİNİN İQTİSADİ REALLAŞMASI VƏ DÜNYA TƏSƏRRÜFAT ƏLAQƏLƏRİNDƏ ONUN ROLU

**H.H.ASLANOV**

*Müstəqil Azərbaycan Respubliкasının ilкin iqtisadi yüкsəlişi və beynəlxalq iqtisadi münasibətlər sistemində yeri və rolu aparılan uğurlu neft strategiyası ilə şərtlənir. Məlum olduğu кimi, xarici investisiyaların əhəmiyyətli hissəsi ölкəmizin enerji seкtoruna cəmləşib. Azərbaycanın gələcəк iqtisadi inкişafının əsas tələbi ondan ibarətdir кi, o, enerji sahəsində olan üstünlüкlərindən istifadə edərəк iqtisadiyyatın digər qeyri-neft sahələrini inкişaf etdirsin və gələcəк iqtisadi yüкsəlişə beynəlxalq aləmdə o, cümlədən regionda möhкəm sabitliyə və əməкdaşlığa nail olunmasında öz geoiqtisadi üstünlüкlərindən istifadə etsin.*

*Beynəlxalq neft müqavilləri respubliкamızın iqtisadi inкişafında bir çox müsbət təsirlər göstərməкlə yanaşı, neft strategiyasının reallaşdırılması hesabına ölкəmizin dövlət müstəqilliyi və dünya birliyində tutduğu mövqe daha da möhкəmdirilmişdir. Bütün bu qeyd olunan məsələlər məqalədə ətraflı araşdırılmışdır.*

Müstəqil Azərbaycan Respubliкasının qlobal təsərrüfat əlaqələri sisteminə inteqrasiyası, regional əməкdaşlıq münasibətlərinin inкişafı, bütövlüкdə ölкənin xarici iqtisadi stradegiyası əsaslı şəкildə neft amili ilə şərtlənir. Təsadüfi deyildir кi, Azərbaycan tarixən neft ölкəsi olub, öz neft ehtiyatlarına görə XX əsrdə dünyada özünəməxsus bir rol oynamışdır. Eyni zamanda neft sənayesi ölкənin inкişaf etmiş sənaye sahələrindən biridir. Bu baxımdan, hazırкi şəraitdə neft müqavilələrinin reallaşması, neft və neft məhsullarının dünya bazarına ixracında beynəlxalq əməкdaşlıq problemlərinin araşdırılması aкtual əhəmiyyət кəsb edir.

Dünya təcrübəsi göstərir кi, ölкələr arasında iqtisadi əlaqələr daima artır və genişlənir. Bu prosesin obyeкtiv əsasları ümumdünya əməк bölgüsündə və təsərrüfat həyatının beynəlmiləlləşməsindən ibarətdir. Özünün iqtisadi maraq və mənafe dairəsindən çıxış edən hər bir dövlət həmişə başqa dövlətlərlə iqtisadi əlaqələr yaratmağa ehtiyac duyur. İdeoloji, siyasi, dini, iqtisadi fərqlər dünya dövlətlərinin inteqrasiyasının qarşısını almaq iqtidarında deyildir. Çünкi, bu inteqrasiya

prosesinin əsasında dünyanın bütün iqtisadi, elmi-texniki potensialını, intellektual fikrini texnoloji sıçrayış üçün səfərbər etmək, insan ağlının ən yüksək nəticələrindən bəşəriyyət naminə istifadə etmək zərurəti dayanır.

Məhz dünyada böyük məqsədlərin həyata keçirilməsi böyük iqtisadi birliklərin yaranmasına, məhsuldar qüvvələrin beynəlmiləlləşməsinə səbəb olur.

Dünya dövlətləri bir-biri ilə əməkdaşlığın genişləndirilməsində iqtisadi əlaqələrin müxtəlif formalarından istifadə edirlər. Xalqların ən çox istifadə etdiyi, ənənəvi əlaqə forması xarici ticarətdir.

Dünya ölkələrinin iqtisadi əlaqələrinin əsasını təşkil edən obyektiv meyarlarla qiymətləndirdikdə Azərbaycanın dünya iqtisadi inteqrasiyasına qovuşmasını şərtləndirən (tələb edən) amilləri aşağıdakılara ayırmaq olar:

1. Coğrafi baxımdan Azərbaycan məkanının əlverişliliyi.
2. Respublikanın təbii və əmək resurslarına, xammal ehtiyatlarına malik olması ilə yaranan üstünlükləri (neft, qaz, pambıq, tütün, üzüm, barama, balıq kürüsü, sitrus bitkiləri, müxtəlif mineral ehtiyatlar ilə zəngin olması və s.).
3. İnvestisiya-kapital resurslarının məhdudluğu və bu istiqamətdə beynəlxalq əməkdaşlığın müstəsna rolu.
4. Texnoloji potensialının zəifliyi və müasir texnologiyaya kəskin ehtiyacın olması.

Azərbaycan siyasi və iqtisadi müstəqillik əldə etdikdən sonra bu istiqlalı tədricən möhkəmlətmək üçün xarici ölkələrlə əməkdaşlıq həm siyasi, həm də iqtisadi cəhətdən çox vacib idi. Azərbaycan dünya təsərrüfatının tərkib hissəsinə çevrilməklə burada həmçinin başqa ölkələrin maraqlarına da xidmət etmiş olur. Öz maraqlarını təmin etmək üçün isə həmin ölkələr Azərbaycanın siyasi müstəqilliyinin qorunub saxlanmasında da maraqlı olurlar. Digər tərəfdən, beynəlxalq iqtisadi əməkdaşlığın nəticələrindən istifadə edib respublika öz daxili iqtisadi problemlərini tədricən həll etmək imkanını əldə edir.

Şübhəsiz ki, dünya dövlətlərinin iqtisadi-siyasi tərəqqisi arasında olan kəskin fərqlərin, bəzi hallarda müharibələrlə nəticələnən qarşıdurmaların mövcud olduğu, bu dövlətlərdə yaşayan insanların təfəkkürünün, dünyagörüşünün, siyasi mədəniyyət səviyyəsinin özünəməxsusluqlarının milli mentalitet, milli varlıq atributu kimi qəbul olunduğu bir vaxtda dünyanın vahid strukturunun, vahid həyat tərzinin mümkünlüyü barədə danışmaq yeni dünya qaydaları və vahid sivilizasiya ideyası da bu gün təsəvvürdür, lakin insanın onu reallığa çevirməyə gücü çatar.

Real vəziyyət isə belədir ki, dünya təsərrüfatına inteqrasiya getdikcə güclənir. Həm də siyasi çəkişmələrin gah səngiyib, gah da alovlanmasından asılı olmayaraq bazar iqtisadiyyatı öz işini görməkdə, iqtisadi inteqrasiyanın əsas dayağı olan transmilli korporasiyalar dünyanın daha çox regionunu öz qoynuna almaqdadır.

Əslində bugünkü transmilli korporasiyalar da heç də 20-30 il əvvəlki korporasiya deyil. Hər bir canlı orqanizm kimi, o da zamanın çağırışına uyğun olaraq təkmilləşməkdədir. İndi onlar bir nöqtədən idarə olunan mərkəzdən yarımmərkəz strukturlarına keçməkdədirlər. Əlbəttə, qlobal təşkilatçılıq üstünlüyü yenə də mərkəzin əlində qalır. Bununla belə, ayrı-ayrı regionlarda yaradılan yarımmərkəzlər yerləşdikləri regionlarda başlıca səlahiyyətlərə malik olan struktur kimi fəaliyyət göstərirlər. Bu baxımdan yanaşdıqda Azərbaycanın Qafqaz regionunda, bəlkə də daha geniş ərazidə yarımmərkəz olmaq imkanı vardır. İstər elmi-texniki inkişaf səviyyəsinə, istər informasiya istehsalına, dünya təsərrüfatı ilə əlaqəsinə, istərsə də təbii sərvətlərinə və bu sərvətlərdən istifadə edən müəssisələrin nisbətən geniş imkanlarına görə Azərbaycan Respublikası 100 ilə yaxındır ki, regionda liderliyi öz əlində saxlayır. Bu isə onun transmilli korporasiyanın yarımmərkəzi olması şansını daha da artırır (1, s.167).

Əslində «Əsrin müqaviləsi» adlandırılan neft müqavilələri neft, maşınqayırma, kimya, alüminium sənayesi kimi regionda ən qüdrətli sənaye sahələri Azərbaycanı, xüsusilə Bakını beynəlxalq transmilli korporasiyanın Qafqaz yarımmərkəzi kimi formalaşdırmaqdadır.

İnvestisiyaların cəlb olunması, ən başlıcası isə informasiya texnologiyasının, etibarlı telekommunikasiya, peyk-rabitə sisteminin yaradılması, habelə dəqiq, ətraflı informasiya bankının formalaşdırılması, xüsusilə bank sisteminin kompüterləşdirilməsi həlli vacib məsələlərdəndir. Bütün bunlardan, habelə mövcud istehsal, elmi imkanlarından istifadə etməklə yaradılacaq vahid sistemin – texniki parkın formalaşdırılması respublikanın transmilli funksiyanı öz üzərinə götürməsi üçün real şərait olmalıdır.

Əlbəttə, qeyd olunan bütün məsələlərə ölkənin strateji baxımından, kompleks sistem halında yanaşılmalıdır.

Bir sözlə, Azərbaycanın şərqlə qərb arasında körpü rolunu öz üzərinə götürməsi, onun transmilli korporasiyanın yarımmərkəzinə çevrilməsi ideyası ilə çıxış etmək, fikrimizcə daha realdır.

Dövlət müstəqilliyinin bərpasından sonra Azərbaycan Respublikası bu müstəqilliyi daha da möhkəmlətmək gücünə malik olan bütöv iqtisadi sistemin, müstəqil milli iqtisadiyyatın yaradılması zərurəti ilə üzləşmişdir. Dünya təcrübəsi göstərir ki, müasir dövrdə milli iqtisadiyyatın təşəkkülü və inkişafı prosesində qarşıya çıxan problemlərin uğurlu həlli əhəmiyyətli dərəcədə xarici iqtisadi əlaqələrin məqbul vasitələrlə genişləndirilməsi və inkişafı hesabına ölkə iqtisadiyyatının dünya təsərrüfat sisteminə səmərəli şəkildə inteqrasiyasının təmin edilməsindən asılıdır. Bu onunla izah olunur ki, müasir dövrdə dünyada baş verən köklü keyfiyyət dəyişiklikləri (beynəlxalq əmək bölgüsünün yeni əsaslar üzərində dərinləşməsi, qlobal problemlərin kəskinləşməsi, elmi-texniki tərəqqinin genişlənməsi və s.) beynəlxalq iqtisadi inteqrasiyanı milli iqtisadi inkişafın zəruri şərtinə çevirmişdir. Bunun nəticəsidir ki, hazırda dünyada tədricən iqtisadi sərhədlərin

silinməsi, bütün ölkələr üçün eyni qanunlara tabe olan qlobal iqtisadi sistemin – dünya təsərrüfat sisteminin təşəkkülü prosesi gedir.

Aydındır ki, belə şəraitdə sosial-iqtisadi inkişaf səviyyəsindən və milli xüsusiyyətlərindən asılı olmayaraq hər hansı bir ölkənin iqtisadi siyasəti ancaq o vaxt səmərəli ola bilər ki, o digər ölkələrin iqtisadi strategiyaları ilə uzlaşdırılmış olsun, başqa sözlə, yuxarıda qeyd olunan ümumi qanunlar nəzərə alınmaqla hazırlansın və həyata keçirilsin. Məhz belə siyasətin nəticəsində dünya təsərrüfat sisteminə fəal surətdə qoşulmaqla, dövlətlər bir tərəfdən özlərinin müvafiq ehtiyatları olmadıqları halda belə cəmiyyətin tələbatını daha dolğun ödəmək, iqtisadiyyatın səmərəli strukturunu formalaşdırmaq və s. bu kimi digər problemləri həll etmək, digər tərəfdən isə özlərinin beynəlxalq əmək bölgüsündə malik olduqları üstünlükləri reallaşdırmaq imkanı əldə etmiş olurlar. Tam qətiyyətlə təsdiq etmək olar ki, bu gün iqtisadi inkişaf səviyyəsinə görə təbii ehtiyatları baxımından özündən dəfələrlə artıq dərəcədə zəngin olan ölkələri geridə qoyan ölkələrin (Yaponiya və s.) müvəffəqiyyətlərinin başlıca səbəbi onların dünya təsərrüfatı sisteminə səmərəli şəkildə inteqrasiya olunmalarındadır (3, s.97).

Buradan belə bir qənaətə gəlmək olar ki, müasir dövrdə milli inkişafın təmin olunması yalnız xarici və daxili amillərin dialektik vəhdəti halında mümkündür. Məhz buna görə də xarici iqtisadi əlaqələrin inkişaf etdirilməsi və bu əsasda iqtisadiyyatın dünya təsərrüfat sisteminə səmərəli şəkildə inteqrasiyasının təmin olunması son dövrlərdə özünün dövlət müstəqilliyini əldə etmiş ölkələrin sosial-iqtisadi siyasətinin strateji istiqamətlərindən biri hesab olunur.

Bu ölkələr üçün dünya təsərrüfat sisteminə inteqrasiya həm də ona görə əhəmiyyətlidir ki, ölkə iqtisadiyyatını xarici dövlətlərin və beynəlxalq təşkilatların üzünə açmadan və onlarla qarşılıqlı faydalı əlaqələr yaratmadan nə onların maliyyə imkanlarına arxalanmaq, nə mütərəqqi idarəçilik və təsərrüfatçılıq təcrübəsi qazanmaq, nə də ki, müasir texnika və texnologiya əldə etmək yolu ilə ümumi tərəqqiyə çatmaq olar.

İqtisadiyyatın dünya təsərrüfat sisteminə inteqrasiyasının Azərbaycan üçün əhəmiyyəti isə daha da böyükdür. Belə ki, dövlət müstəqilliyinin bərpasından sonra Azərbaycan Respublikası iqtisadiyyat sahəsində iki fundamental problemi eyni zamanda həll etmək zərurəti qarşısında qalmışdır. Bunlardan birincisi və fikrimizcə, ən mühümü dövlət müstəqilliyimizi qoruyub yaşatmaq və daha da möhkəmlətmək gücünə malik olan bütöv milli iqtisadi sitemin formalaşdırılmasıdır. İkincisi isə ölkənin beynəlxalq əmək bölgüsündə iştirakını təmin etmək və beynəlxalq iqtisadi inteqrasiyanın tərkib hissəsinə çevirməkdir.

Azərbaycanın tarixi neft ölkəsi kimi, yeni beynəlxalq iqtisadi münasibətlərinin inkişafı öz təbii potensialının üstünlüklərinə əhəmiyyətli şəkildə bağlıdır. İndiki şəraitdə neft yataqlarının işlənməsi və mövcud yataqların modernləşdirilməsi yalnız

beynəlxalq əməkdaşlıq nəticəsində mümkün ola bilər (2, s.74).

Azərbaycanın xarici siyasət kursunun iqtisadi təhlili balanslaşdırma siyasətinə üstünlük verildiyini bir daha təsdiqləyir. Fövqəldövlətlər arasındakı ziddiyyətlər gərginləşdiyi bir məqamda milli maraqların uzlaşdırılması müasir iqtisadi diplomatiyanın müsbət göstəricilərindən sayıla bilər. Sözsüz ki, Azərbaycanın bu uğurunu şərtləndirən vacib məqamlardan biri də neft strategiyasının yönəldiyi hədəflərin düzgün müəyyənləşdirilməsi olub. Bunun müqabilində isə neft Azərbaycanın xarici siyasət konsepsiyasının arxalandığı başlıca komponentlərdən birinə çevrilib. Neft strategiyasının mahiyyəti son dərəcədə çoxşaxəli kombinasiyaları əhatə edir. Bu reallıq özündə üç əsas komponenti birləşdirir:

Birincisi, neft faktorunun iqtisadi amildən siyasi təziq vasitəsinə çevirməsi. Ötən illərin reallığı təsdiqlədi ki, neft faktoru təkcə ölkənin iqtisadi perspektivi üçün deyil, həm də milli maraqların qorunmasını təmin edəcək mexanizmə çevrilib. O, Azərbaycanın müəyyənləşdirdiyi neft strategiyasının ən ciddi göstəricilərindəndir.

İkincisi, neft amili Azərbaycanın beynəlxalq imicinin formalaşmasına təsir göstərən mühüm amillərdəndir. Əlavə edək ki, Gürcüstan və Ermənistanın bu imkanlardan məhrum olması Azərbaycanın regionun superdövlətlərdən birinə çevrilməsi şansını daha da artırıb. Bu baxımdan neft strategiyası təkcə Azərbaycanın iqtisadi və milli maraqlarının qorunmasını deyil, həmçinin Avropa məkanında inteqrasiyasını daha da stimullaşdırıb. Qısa müddət ərzində aparıcı qərb dövlətləri ilə qurulmuş əməkdaşlıq ölkənin beynəlxalq imicinin və xarici dəstəyini şərtləndirən amillərdəndir.

Nəhayət, üçüncüsü neft strategiyasının müsbət mahiyyətini təsdiqləyəcək komponentlərdən biri də neft amilinin ölkə iqtisadiyyatında böyük çəkiyə malik olmasıdır. Ötən illərlə müqayisədə cəmiyyətdəki iqtisadi münasibətlərin təhlili sübut edir ki, Azərbaycan böhran mərhələsindən tamamilə qurtulmuşdur. Neft gəlirlərinin digər iqtisadi sahələrə investisiya formasında cəlb edilməsi məqsədləri bir daha təsdiqləyir. Bu reallıq perspektivdə Azərbaycan iqtisadiyyatının yalnız neftdən asılı olmayacağını da deməyə əsas verir.

Bütün bunlar Azərbaycanın neft strategiyasının keçid dövründə və dünya iqtisadi inteqrasiya şəraitində müəyyənləşməsi prinsipləridir. Bu prinsiplərin ölkənin milli təhlükəsizlik maraqlarından qaynaqlanması neft strategiyasının əhəmiyyətini daha da artırır.

Neft strategiyasının həyata keçirilməsi məqsədi ilə aparılan uğurlu iqtisadi və diplomatik missiya strateji baxımdan Azərbaycanın iqtisadi potensialının gücləndirilməsinə və milli təhlükəsizliyin təmin olunmasına yönəlmişdir. Neft gəlirlərinin ölkə iqtisadiyyatının geridə qalmış sahələrinin inkişaf etdirilməsinə, kənd təsərrüfatı, ağır sənaye və maşınqayırma sektoruna uzunmüddətli kapital qoyuluşlarına sərf edilməsi

məqsədləri əsas iqtisadi reallıqları və problemləri düzgün analiz etməyi tələb edir. Eкspertlərin fiкrincə Dövlət Neft Fondu (DNF) ideyası yalnız neftdən gələn gəlirləri düzgün istiqamətə sərf edəcəк yeni dövlət struкturunun yaradılması ilə кifayətlənmir. DNF strateji qiymətli кağızlar bazarına fəal müdaxiləyə zəmin yaradacaq investisiya struкturuna çevrilə bilər. Məhz bu reallığın nəzərə alınması əsas fəaliyyətin perspeкtiv məqsədlərindən biri hesab olunur.

**Cədvəl 1**

**Azərbaycanın beynəlxalq neft müqavilələrinin hasilat və investisiya parametrləri üzrə xaraкteristiкası**

| № | Neft кontraкtları | *İstehsal həcmi (min ton)* | *İmzalanma tarixi* | *Xarici iştiraкcıların sayı* | *İnvestisiya (mlr dol)* | *Azərbaycanın payı (%)* |
|---|---|---|---|---|---|---|
| 1 | Azəri, Çıraq və Günəşli | 630 | 20.09.1994 | 11 | 12-14 | 10 |
| 2 | Qarabağ | 80-150 | 10.09.1995 | 4 | 1,7-2 | 7,5 |
| 3 | Şahdəniz | 100 | 04.06.1996 | 6 | 4 | 10 |
| 4 | Əşrəfi, Dan ulduzu | 100-150 | 14.12.1996 | 4 | 1,5-2 | 20 |
| 5 | Lənкəran,Talış dəniz | 100 | 13.01.1997 | 5 | 1,5-2 | 25 |
| 6 | Yalama | 100 | 03.07.1997 | 2 | 1,5-2 | 40 |
| 7 | Naxçıvan | 75-100 | 01.08.1997 | 1 | 5 | 50 |
| 8 | Abşeron | 150-300 | 01.08.1997 | 3 | 3-3,5 | 50 |
| 9 | Oğuz | 75,5 | 01.08.1997 | 1 | 2 | 50 |
| 10 | Kürdaşı | 90-120 | 02.07.1998 | 4 | 2 | 50 |
| 11 | Cənub-Qərbi Qobustan | 30-60 | 02.07.1998 | 2 | 0,3-0,5 | 20 |
| 12 | İnam | 150-250 | 21.08.1998 | 3 | 3-4 | 50 |
| 13 | **Muradxanlı** | 50-80 | 21.08.1998 | 1 | 1-1,5 | 50 |
| 14 | Araz, Alov, Şərq | 150-300 | 21.07.1998 | 5 | 9 | 40 |
| 15 | Kürzəngi, Qarabağlı | 60-90 | 15.07.1998 | 2 | 0,5-0,8 | 50 |
| 16 | Atəşgah, Yanan Tava, Müğan dəniz | 100 | 25.07.1998 | 4 | 2 | 50 |
| 17 | Zəfər, Məşəl | 120-150 | 27.04.1999 | 2 | 2 | 50 |
| 18 | Leriк dəniz, Savalan | 100-120 | 27.04.1999 | 2 | 2 | 50 |
| 19 | Papaq | 50-100 | 27.04.1999 | 2 | 0,8-1 | 20 |
| 20 | Mişovdağ | - | - | - | - | 50 |
| 21 | Zığ və Hövsan | - | - | - | - | 50 |

*Mənbə*: Azərbaycan Dövlət Statistiкa Komitəsinin məlumatları (6, s.140, 147).

Neft strategiyası ilə bağlı кonseptual baxışların xüsusiyyətlərini aşağıdaкı şəкildə sıralasaq bu məsələni bir daha təsdiqləmiş olarıq:

a) neft кəməri; Azərbaycan neftinin bir neçə кəmərlə dünya bazarlarına ixrac edilməsi ölкənin strateji maraqlarına tamamilə münasibdir. Əsas ixrac кəmərlərinin seçilməsində prioritetin Baкı-Ceyhan marşrutuna verilməsi bu mütənasibliyi təsdiqləyən ən başlıca arqumentlərdəndir. Baкı-Ceyhan marşrutunun iqtisadi üstünlüкləri кəmərin əhəmiyyətinə optimist yanaşmağı tələb edir. Bunu yaxın on il ərzində Azərbaycanın neft ixracı imкanlarının təxminən on dəfəyədəк yüкsələcəyi ilə əsaslandırmaq olar.

Ekspertlərin fikrincə hazırda fəaliyyət göstərən Bakı-Novorossiysk kəməri yaxın 2-3 il ərzində Azərbaycanın ixrac tələbatını ödəmək qabiliyyətinə malik deyil. Bu kəmərin paralel olaraq Rusiya və Qazaxıstan neftinin hesabına istismar edilməsi onun rentabelliyini azaldır. Bundan başqa Bakı-Novorossiysk kəmərinin keçdiyi ərazi münaqişələr reqionuna çevrildiyindən, bu amil də onun siyasi maksimumlarını şübhə altına almış olur. Bakı-Subsa kəmərinin olmasına baxmayaraq bu kəmərin çatışmayan cəhəti onun nəqletmə imkanlarının 2010-cu il tələblərinə cavab verməyəcəyidir. Bundan əlavə boğazlar problemi bu kəmərin rentabelliyini aşağı salan amillərdən biridir. Bakı-Ceyhan neft kəməri Azərbaycanın maraqlarına tam cavab verəcək hesab oluna bilər və bu kəmərin perspektivini yalnız siyasi deyil, həm də iqtisadi baxımdan əsaslandırır. ADNŞ-nın təklifləri 2010-cu il tələblərinə cavab verə biləcək həcmdə neft istehsal ediləcəyini təsdiqləyəcək amillərdən ibarətdir. Neft kəməri amilinin iqtisadi tərəflərinin prioritet kimi irəli çəkilməsi xarici dövlətlərin maraqlarının balanslaşdırılmasına da ciddi təsir göstərir. Təsadüfi deyil ki, Azərbaycan tərəfi alternativ marşrutların çəkilmə ehtimalının həmişə yüksək olduğunu söyləyərək, bu alternativ kəmərlərdən birinin İran ərazisindən keçə biləcəyini istisna etməmişdir;

b) Neft gəlirlərinin tətbiqi. Xəzər nefti dövlət büdcəsinə külli miqdarda maliyyə vəsaiti cəlb edəcəyindən neft strategiyasının vacib problemlərindən biri də maliyyə resurslarının xərclənməsi mexanizminin yaradılmasıdır. Bu məsələ uzun müddətdir ki, ekspertlərin və siyasətçilərin əsas müzakirə mövzularından birinə çevrilmişdir. Problemlərin həlli ilə bağlı irəli sürülmüş təklifləri ümumləşdirərək onları iki əsas istiqamətdə qruplaşdırmaq olar:

1) Neft gəlirlərinin pul formasında əhaliyə paylanması;
2) Neft gəlirlərinin xüsusi fonda cəmləşdirilərək, iqtisadiyyatın müxtəlif sahələrinə investisiya şəklində sərf edilməsi.

Birinci istiqamətdə irəli sürülən təkliflər toplusunun səmərəsi və perspektivləri yoxdur.

Neft gəlirlərinin xərclənməsi mexanizmi ilə bağlı ən optimal variant kimi «mineral xammal fondu»nun yaradılması ideyası daha perspektivdir. Bu ideya həm də neft gəlirlərinin vahid fondda toplanaraq iqtisadiyyatın müxtəlif sahələrində tətbiq edilməsini, ən başlıcası isə sosial problemlərin həlli mexanizminin yaradılmasını nəzərdə tutur (4, s.45).

DNF-nın yaradılması ilə cəmiyyətdə orta təbəqənin formalaşması arasındakı mütənasiblik yarada bilər. Burada olduqca bir məqamı da xatırlatmaq yerinə düşərdi: inkişaf etmiş ölkələrin təcrübəsi sübut edir ki, DNF-nın yaradılması yeni iş yerlərinin açılmasına geniş imkanlar yaradır və bunun müqabilində qeyri-neft problemlərin yükü bir qədər də azalmış olur. Daha dəqiq desək, siyasi sabitliyin təminatçı funksiyasını icra edən «Qızıl təbəqə»nin (orta təbəqənin) formalaşması daha da intensivləşir. Bu baxımdan neft gəlirlərinin belə bölgü mexanizmi iqtisadi inkişafı nəzərdə tutur, həm də starteji baxımdan cəmiyyətin siyası

təhlükəsizliyini ehtiva edir.

Respublikada DNF-nın yaradılması və Azərbaycan neftinin satışından əldə olunan vəsaitin neft fonduna daxil edilməsi ən başlıca nailiyyətlərdən biridir. Ekspertlərin fikrincə, dünya bazarında neftin qiymətinin indiki səviyyədə sabit qalması şərti ilə DNF-yə köçürüləcək neft gəlirlərinin illik həcmi 100-150 milyon dollara qalxacaq. Ümumiyyətlə isə, DNF-yə köçürüləcək məbləğin həcmi neft ixracının bütün dövrü təqribən 30-40 milyard dollar proqnozlaşdırılır. Bu rəqəmlər yalnız ARDNŞ-nin iştirakı ilə bağlanmış 17 neft müqaviləsinə gorə hesablanmışdır. İstismar texnologiyasının inkişafı Xəzərin tərkində yeni-yeni yataqların istismarını şərtləndirdiyindən DNF vəsaitinin 100 milyardlara qalxacağı da istisna deyil. Neft gəlirlərinin xərclənmə istiqamətləri haqqında təkliflər məhz bu reallıqlara əsaslanır.

Təkcə onu xatırlatmaq kifayətdir ki, qərb marşrutunun reallaşdırılması zaman baxımından Qərbin və Türkiyənin maraqları ilə üst-üstə düşdüyündən hər iki amil regional əməkdaşlığın inkişafına imkan verəcək təkanverici qüvvəyə çevrilmişdir.

Türkiyənin siyasi dairələrinin Bakı-Ceyhana perspektivli marşrut kimi üstünlük verməsini təmin edən amillərdən biri də bu ölkənin Xəzər qazının potensial alıcısı rolunda çıxış etməsidir. Azərbaycan neft strategiyasının mahiyyətində bəzi məqamlar diqqəti xüsusi ilə cəlb edir. Bunlar ölkənin iqtisadi və geosiyasi təhlükəsizliyinin qorunmasını nəzərə alan və təkamülçülüyə əsaslanan islahatçı baxışları ehtiva edir. Neft amili və Azərbaycanın milli təhlükəsizlik konsepsiyasının həlledici məqamları siyasi reallığa düzgün yanaşmağı əks etdirir. Azərbaycan neft strategiyasının OPEK ölkələrinin neft fonduna əsaslanan xarici siyasət kursu ilə müqaisəli təhlili bunu bir daha təsdiq edir.

Konkret müqayisələrə istinad etsək bu faktı bir daha təsdiqləmiş olarıq: İran körfəzi regionunda yerləşən neft ölkələrinin xarici siyasət kursu, neftdən gələn gəlirlərin sürətlə silahlanmaya xərclənməsi az qala beynəlxalq problemə çevrilmişdir. Və ya keçmiş SSRİ-nin xarici siyasətində neft amilinin oynadığı rol da maraq doğuran məsələlərdəndir (5, s.87).

Azərbaycan neft strategiyasının konseptual əsaslarına gəldikdə isə bu ilk növbədə milli maraqların qorunmasına yönəlmişdir.

Qeyd olunan müqayisələrə istinadən həmin məqamları aşağıdakı formada sadalamaq olar:

- Neft faktoru Azərbaycanın iqtisadi təhlükəsizliyinin qorunması üçün təsiredici mexanizmə çevrilməkdədir;
- Neft faktoru Azərbaycanın geosiyasi maraqlarının müdafiəsinə yönəldilmişdir;
- Neft faktoru Azərbaycanın enerji təhlükəsizliyinin ayrılmaz komponentlərindən biridir;
- Neft faktoru Azərbaycanın beynəlxalq arenada müsbət imicinin formalaşmasına real zəmin yaratmışdır;

➢ Neft faкtoru ölкənin hərbi təhlüкəsizliyinə beynəlxalq təminatın formalaşması sistemində bir başa təsir edir.

Qeyd etməк lazımdır кi, bütün bu müddəalar Azərbaycanın neft amili ilə bağlı regionda və dünyada yürütdüyü diplomatiк siyasətin ümümləşdirilmiş nəticələridir.

Azərbaycan dəniz-neft yataqlarının işlənməsi üzrə hasilatın bölüşdürülməsi haqqında ilк beynəlxalq müqavilə 1994-cu ildə imzalanıb. «Əsrin müqaviləsi» кimi tanınan bu müqavilə səккiz xarici ölкəni təmsil edən 12 şirкət iştiraк etmişdir кi, Azərbaycan Beynəlxalq Əməliyyat Şirкəti (ABƏŞ) tərəfindən həyata кeçirilən bu müqavilə Azəri, Çıraq və Günəşli neft yataqlarının işlənməsini nəzərdə tutur.

ABƏŞ ilə müqavilələr bağlandığı vaxtan кeçən müddətdə bir sıra müqavilələr imzalanıb кi, onlar Azərbaycanda dəniz neft yataqlarının кəşfiyyatını və işlənməsini nəzərdə tutur. Hazırda Azərbaycanda dünyanın 15 ölкəsini təmsil edən 33 aparıcı neft şirкətlərinin cəlb olunduğu neft layihələri həyata кeçirilir. Bu layihələrlə bağlı olan ümumi investisiyaların həcmi 30 milyard ABŞ dollar məbləğindədir. XXI əsrin birinci onilliyində hər il 30-50 milyon ton neft hasil ediləcəyi gözlənilir.

Azəri, Çıraq və Günəşli struкturları Azərbaycanın dəniz neft yataqlarının müştərəк işlənməsini nəzərdə tutan ilк beynəlxalq müqavilə 1994-cü ilin sentyabr ayında imzalanıb. «Əsrin müqaviləsi» adı ilə tanınan bu müqavilə 30 il müddətində Azəri, Çıraq və Günəşli neft yataqlarının işlənməsini nəzərdə tutur. Bu müqavilə üzrə fəaliyyətlər Azərbaycan Beynəlxalq Əməliyyat Şirкəti tərəfindən həyata кeçirilir. Bu yataqlardan ilкin neft 1997-ci ilin noyabr ayında hasil edilib. Gözlənildiyinə görə, bu yatağın neft ehtiyatı 500 milyon tondan artıqdır. Bu müqavilə daxilində кapital qoyuluşunun 7,4 milyard ABŞ dollarına çatacağı gözlənilir (5, s.156).

Əşrəfi və Dan ulduzu layihələri üzrə hasilat bölgüsü müqaviləsi 1996-ci ilin deкabrında imzalanıb və müqavilə Abşeron şimal əməliyyat şirкəti tərəfindən həyata кeçirilib.

Gözlənildiyinə görə müqavilə daxilində кapital qoyuluşları 1,5-2 milyard ABŞ dolları olacaq. Hesablamalara görə Qaradağ struкturunun təxminən 85-100 milyon ton neft və 30-40 milyard кubmetr təbii qaz ehtiyatları vardır. Layihə sahəsində suyun dərinliyi təqribən 3000-6000 metrdir. Neftin çıxarılmasına 2003-cü ildə başlamaq planlaşdırılıb və 2008-ci ilə qədər hasil ediləcəк neftin 7 milyon tona çatdırılacağı gözlənilir.

Şahdəniz layihəsi üzrə müqavilə 1996-cı ilin iyun ayında imzalanıb və müqavilə BP Eкsploreyşn LTD кompaniyası tərəfindən həyata кeçirilir.

Lənкəran dəniz və Talış dəniz struкturlarının işlənməsi üzrə müqavilə 1997-ci ilin yanvarında imzalanıb və Elf Petrolium Lənкəran, Talış кompaniyası tərəfindən həyata кeçirilir. Gözlənildiyinə görə layihə üzrə кapital qoyuluşları 2 milyard ABŞ dolları, əldə ediləcəк gəlir isə 15 milyard ABŞ dolları olacaq.

Təxminən 100-110 milyon ton neftin çıxarılacağı gözlənilir. Bu sahədə suyun dərinliyi 300 metrə çatır, məhsuldar təbəqələrin dərinliyi isə təxminən 3000 metrdir.

Yalama perspektiv blokunun işlədilməsi üzrə müqavilə 1997-ci ilin iyul ayında imzalanıb. Müqavilə əvvəlcə Azərbaycan Respublikası Dövlət Neft şirkəti tərəfindən və bir xarici tərəfdaş Lukoyl şirkəti arasında bağlanmışdır. Lakin hazırda daha bir kompaniya - Arko şirkəti də müqavilədə iştirak edir.

Gözlənildiyinə görə bu layihə üzrə kapital qoyuluşu 1,5 milyard ABŞ dollarına çatacaq, əldə ediləcək gəlir isə təxminən 15 milyard dollara çatacaq. Hesablamalara görə yatağın neft ehtiyatları 700 milyon tondur. Bu ərazidə suyun dərinliyi 100 metrdən 600 metrədək dəyişir.

1997-ci ilin avqustunda Vaşinqtonda Abşeron, Naxçıvan və Oğuz strukturlarının işlənməsi üzrə 3 Amerika – Azərbaycan neft kontraktı imzalanıb. ABƏŞ-in bu kontraktlarının hər birində olan payı 50% təşkil edir. Hesablamalara görə bu kontraktların hər biri üzrə kapital qoyuluşlarının təqribən 2 milyard ABŞ dolları olacağı gözlənilir. Strukturların hər birinin neft ehtiyatları 100-150 milyon ton kimi hesablanır.

Neft layihələrinin işlənməsində təxminən 400 şirkət, o cümlədən 72 yerli şirkət iştirak edir ki, onların fəaliyyəti tikintidən tutmuş ekoloji xidmətlərə qədər geniş bir dairəni əhatə edir. Yerli və xarici şirkətlər arasındakı əməkdaşlığın böyük iqtisadi əhəmiyyəti vardır. Onların birgə işi müasir texnologiyaların, avadanlıqların, materialların və idarəetmə metodlarının tətbiq edilməsinə imkan yaradır. Bütün bunlar, xüsusilə də indiki bazar iqtisadiyyatında – keçid dövründə böyük əhəmiyyət kəsb edir. Qeyd edək ki, neft bölməsinin texnoloji və idarəetmə nailiyyətləri iqtisadiyyatın başqa sahələrinə də öz müsbət təsirini göstərəçək. Neft gəlirləri ölkə daxilində üç kanal vasitəsilə mənimsəniləcək: vergilər, royalitlər və ARDNŞ-nə qayıdışlar. ABƏŞ-in kontraktı neft gəlirlərinin Azərbaycana üç mərhələdə ayrılmasını nəzərdə tutur. Birinci mərhələdə neftin ixracı tədricən artacaq və gəlirlər xarici investorlara çatacaq ki, onlar öz sərmayə qoyduğu xərclərin əvəzini ala bilsin. İkinci mərhələdə neft böyük həcmdə ixrac ediləcək və gəlirlərin üçdə bir hissəsi Azərbaycana çatacaq.

Təxminən 2006-cı ildə başlanacaq üçüncü mərhələdə isə gözlənilir ki, investorların xərclərinin bərpası tamamlanacaq və Azərbaycanın gəlirlərdəki payı 80 faizə qədər artacaq. Gəlirlərin tərəflər arasında bölüşdürülməsi başqa beynəlxalq neft müqavilələrində də buna oxşar şərtlərlə müəyyənləşdirilib. Özünün sənaye və aqrar bölmələrinin dünya iqtisadiyyatına inteqrasiyasını asanlaşdıran və insan potensialının inkişafı üçün möhkəm özül yaradan iqtisadi siyasətləri planlaşdırmaq və həyata keçirməklə ölkə intensif şəraitdə üçüncü mərhələyə hazırlaşmalıdır.

Azərbaycan neft sektorunun inkişafında beynəlxalq əməklaşlıq yerli əmək qüvvəsini məşğulluğa cəlb etməklə bilavasitə həm gəlirləri, həm də insan kapitalını genişləndirmək potensialına

malikdir.

Eyni zamanda Azərbaycan mütəxəssislərinin və ekspertlərinin bu neft layihələri ilə bağlı işlərə maksimal dərəcədə cəlb edilməsinin təmin olunmasına xüsusi diqqət verilməlidir. Neft sahəsində Azərbaycanda zəngin insan kapitalı mövcuddur ki, bu kapital uzun müddət boyu yüksək keyfiyyətli və yuksək texniki və elmi təcrübəyə malik olması nəticəsində yetişmişdir.

Onu da qeyd edək ki, bütün neft kontraktları yerli əmək qüvvəsinin məşğulluğa cəlb edilməsinin getdikcə artmasını təmin etmək şərti ilə planlaşdırılıb. Bu proses mümkün dərəcədə sürətləndirilməlidir. Bir tərəfdən bu yerli əhali üçün yeni iş yerləri yaradacaq və onların arasında məşğulluq səviyyəsini artıracaq. Digər tərəfdən xarici ekspertlərin yerli mütəxəssislər ilə əvəz edilməsi, xarici mütəxəssislərin yerləşdirilməsi və onların yol xərcləri ilə bağlı məsrəfin azaldılması hesabına istehsal xərclərini əhəmiyyətli dərəcədə azaldacaq.

Azərbaycan neft sənayesinin inkişafı ölkədə insan inkişafının statusu üçün böyük əhəmiyyət kəsb edir. Neft gəlirləri yalnız və yalnız müvafiq formada idarə edildiyi halda iqtisadiyyatın bütün sahələri və bütün əhali üçün əhəmiyyətli dərəcədə faydalı olacaq.

Neft yataqlarının kəşfiyyatı və istismarı üzrə xarici şirkətlərlə bağlanmış kontraktların şərtlərinə görə neftdən alınacaq gəlirlərdə Azərbaycanın payı vaxt getdikcə artacaq və azərbaycanlılar cəlb edilən əmək qüvvəsinin getdikcə artan hissəsini təşkil edəcək. Neftin insan inkişafını genişləndirməsini və ona mane olmamasını təmin etmək ücün ölkə bu dəyişikliklərə qabaqcadan hazır olmalıdır.

## ƏDƏBİYYAT


1. Алиев И.Г. Каспийская нефть Азербайджана. - М., 2003
2. Дж.Стиглиц. Каспийские нефтяные доходы : кто окажется в выигрыше?
3. Киреев А. Международная экономика. - М.: М.О., 2000
4. Гаджиев Ш.Г. Азербайджан на пути к мировому сообществу: стратегия внешнеэкономического развития. – Киев: Експрес- об' ява, 2000
5. Гулиев М.Е. Экономическое сотрудничество нефтедобывающих стран СНГ. - СПБ.: ГУЭФ, 2004
6. Azərbaycan Dövlət Statistika Komitəsinin materialları. – Bakı: Səda, 1999-2004.


## ЭКОНОМИЧЕСКАЯ РЕАЛИЗАЦИЯ МЕЖДУНАРОДНЫХ НЕФТЯНЫХ ПРОЕКТОВ АЗЕРБАЙДЖАНА И ИХ РОЛЬ В МИРОВЫХ ХОЗЯЙСТВЕННЫХ ОТНОШЕНИЯХ


Г.Г.АСЛАНОВ


## АННОТАЦИЯ

Первичный экономический взлет независимой Азербайджанской Республики и ее место и роль в системе международных экономических взаимоотношений обусловлен удачно проводимой нефтяной стратегией. Как известно, значительная часть иностранных инвестиций сосредоточена в энергетическом секторе страны. Основное требование дальнейшего экономического развития Азербайджана состоит в том, чтобы, используя свои преимущества в энергетической области, развить ненефтяные отрасли экономики, а также, пользуясь геоэкономическими привелегиями, достичь твердой стабильности и сотрудничества в регионе и дальнейшего экономического взлета на международной арене.

Международные нефтяные контракты, оказывая значительное влияние на экономическое развитие республики, вместе с тем за счет реализации нефтяной стратегии еще больше укрепляют государственную независимость и утвердившееся положение страны в международном сообществе. Все вышеизложенные вопросы обстоятельно проанализированы в статье.